Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Uşaqlar və fəlsəfə

**Beynəlxalq Fəlsəfə günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar mədəniyyət işçisi**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**“Uşaqlar və fəlsəfə”** - Beynəlxalq Fəlsəfə günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed Nərgiz. M; ixt.red. və burax. məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş

Fəlsəfə təbiətin, cəmiyyət və insan təfəkkürünün ən ümumi inkişaf qanunları haqqında elm olub filosofiya sözündən götürülmüşdür. "Filo" və "sofiya" yunan sözü olub, "Sofiya" hikmət, "filo" isə sevmək deməkdir. "Filosofiya" sözü isə *"hikməti sevmək"* mənasındadır. "Fəlsəfə" isə orta əsr şərq alimlərinin bu yunan sözünü ərəb dilinə uyğun deməlırindən yaranıb. İlk dəfə özünü "*filosof"* adlandıran Pifaqor belə deyib: "Mən öz yerimi bilirəm. Bilirəm ki, hikmət yalnız Tanrı biliyidir və məndə ola bilməz. Mən ancaq hikməti sevə bilərəm". İnsanın dünyaya münasibətinin ən ümumi anlayışlarla dərk edilməsi əsasən fəlsəfi kateqoriyaların sayəsində baş verir. Kateqoriyalar təbiətin, cəmiyyətin və təfəkkürün ən umumi və vacib xüsusiyyətlərini özündə əks etdirib fəlsəfənin zamanca inkişaf səviyyəsinə görə dəyişir. Fəlsəfəyə ilk kateqoriya anlayışını antik dövr yunan filosofu Aristotel gətirmişdir. Fəlsəfədə əsas hesab olunan kateqoriyalar Məkan, Zaman, Səbəb, Hərəkət, Kəmiyyət və keyfiyyət, Oxşarlıq və əkslik, ziddiyyətdir. Beynəlxalq Fəlsəfə günü münasibətilə metodik mərkəz olaraq kitabxananın elmi-metodika şöbəsi vəsait hazırlamışdır. Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün nəzərdə tutulmuş vəsait iki hissədən ibarətdir. Birinci hissədə bu günün yaranması, tarixi, filosof sözünün tarixindən danışılır, bir-birindən maraqlı kitablardan söhbət açılır. İkinci hissədə isə fəlsəfə günü ilə bağlı kitabxanalarda hazırlana biləcək müxtəlif tədbir formaları haqqında oxuculara məlumat verilir.

**Fəlsəfə tarixi**

Fəlsəfə tarixi antik dövrdən bu günə qədər fəlsəfənin inkişaf yolunu, strategiyasını, filosofların fəlsəfi nəzəriyyələrini, sistemlərini, baxışlarını öyrənir. Qeyd edək ki Fəlsəfə tarixinin subyekti fəlsəfə tarixçisidir. Fəlsəfə tarixinin subyekti filosoflardır. Fəlsəfə tarixi inkişaf müddətində müəyyən mərhələlərdən keçmiş, çoxsaylı müstəqil düşüncələr, ideyalar, nəzəriyyələrlə zənginləşmişdir. Antik dövrdən bu yana Fəlsəfə tarixi fəlsəfəni dövrlərə və yerlərə bölərək mərhələli şəkildə tədqiq etmişdir. Qədim dövrdən etibarən fəlsəfə müəyyən dövrlərə və bölgələrə ayrılaraq araşdırılmış, tədqiq olunmuşdur. İlk fəlsəfi fikirlərin yaranıb inkişaf etdiyi qədim Şərq dünyası bu baxımdan şərq düşüncələrinə dövr və məkan prizmalarına uyğun filosoflar tərəfindən Qədim Şərq fəlsəfəsi adı altında tədqiq edilmişdir. Lakin fəlsəfənin beşiyi hesab olunan Şərq dünyası ilə bərabər fəlsəfi düşüncələrin sistemləşdirilməsində və zənginləşdirilməsində əhəmiyyətli yerə və rola malik Antik fəlsəfənin - Qədim yunan - Roma fəlsəfəsinin də adını çəkmək mümkündür.

*Qədim dünya fəlsəfəsi*

*Qədim Şərq fəlsəfəsi*

*Yunan-Roma fəlsəfəsi (Antik fəlsəfə)*

*Orta Əsrlər fəlsəfəsi*

*Avropa fəlsəfəsi*

*Şərq fəlsəfəsi*

*Yeni dövr fəlsəfəsi*

*Şərq fəlsəfi düşüncə tərzi*

*Qərb fəlsəfi düşüncə təzi*

*Yeni dünya (Amerika) fəlsəfi düşüncə tərzi*

*Müasir fəlsəfə*

Hər il müxtəlif tədbir, virtual təqdimatlarla, müsabiqələrlə oxuculara maraqlı olacaq layihələrini həyata keçirən F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxucuları kitabxananın sosial şəbəkələrdəki hesabları üzərindən həmin layihələrlə tanış ola bilirlər. Kitabxana kollektivi tərəfindən hazırlanmış bu tədbirlərdə oxucularla müxtəlif uşaq yazarları, rəssam, tərcüməçi, psixoloq və tədqiqatçı, naşirlər görüşərək müasir dövr kitabxana tədbirlərini daha maraqlı edir. Beynəlxalq Fəlsəfə günü ilə bağlı kitabxanalarda uşaqları mütaliəyə cəlb etmək üçün daha maraqlı tədbirlər təşkil etmək olar. Bü əlamətdar gün münasibətilə ən əsas sərgilər, kitab icmalları, kitabda yer alan hər hansı fəlsəfi fikirlər, filosoflar, hekayə və nağıllar ətrafında söhbətlər təşkil edə bilərik. Sual- cavab və viktorinalar isə oxuculara daha maraqlı olar, Kitabxanadan elektron istifadə zamanı oxucular virtual tədbirlər vasitəsiləmövzu ilə bağlı məlumat ala bilirlər.

Sərginin təşkil

Başlıq

Şəkil

Fəlsəfə haqqında olan kitablar

Şeir parçası, filosofların fikirləri

Kitabxanalarda sərgilərin təşkili əyani təbliğat formasının ən geniş yayılmış üsuludur. Sərginin məqsəd və məramını açmaq üçün izahlı mətnlərdən, ayrı-ayrı elm xadimlərinə istinad edən sitatlardan istifadə edilir. Sərgilər həcminə, tərtibat texnikasına və müddətinə görə bir-birindən fərqlənib, bir və ya bir neçə lövhədə, stenddə yerləşə bilər. Burada mətn və təsvir materialları bir-birini tamamlamalıdır. Müasir dövrdə sərgilər kitabxanaların saytı, facebook və instaqram səhifələrində də yer alır. Ümumdünya Fəlsəfə gününün təbliği ilə bağlı kitabxanada *"Uşaqlar və fəlsəfə", "Fəlsəfə və mənəviyyat", "Müasir fəlsəfə", "Uşaqların dünya görüşünün formalaşmasında fəlsəfənin rolu"* başlıqları ilə sərgi təşkil edə bilərik. Sərgidə sitatlardan da istifadə edə bilərik.

**Sitatlar:**




Fəlsəfə ruhun dərmanıdır.

**Mark Tull Siseron: e.ə.106- e.ə 43**




Fəlsəfə var insan onun qanadlarında göylərə uçur. Fəlsəfə var insanı yerin yeddi qat dərinliyinə aparır.

**Əbu Turxan**




Axmaqlığın ən böyük sübutu, eyni şeyi dəfələrcə təkrar edib fərqli nəticələr gözləməkdir.

**Albert Eynşteyn**




Bir insanın sənə nələr verəcəyi yox, sənin üçün nələrdən keçəcəyi vacibdir.

**Fridrix Hegel**




Ağlın gücündən qüvvətli olan tək bir şey qəlbin cəsarətidir.

**Con Neş**




Zaman böyük bir müəllimdir amma çox təəsüf ki, bütün şagirdlərini öldürür.

**Benjamin Franklin**




İnsanları kitab kimi düşünün. Üz qabığına baxıb aldanmayın. İçini oxuyunca bilərsiz dəyərini.

**Mövlana**




Günəşi örtsədə qara buludlar. Yenə günəş adlı bir qüdrəti var.

**Nizami Gəncəvi**



Cibi zəngin amma ruhu kasıb olan insanın halı yaman. Çünki o hər şeyin qiymətini bilər dəyərini deyil**.**

Cahil birinin yanında kitab kimi səssiz ol!

**Mövlana**




Qürurlu kürək gec-tez əyilir,
qara saqqal zamanla ağarır,
gözəl saçlar günün birində tökülür,
mükəmməl sifəti qırışlar doldurur,
amma yaxşı ürək Ay və Günəş kimi
hətta Aydan çox Günəş kimi parlaq
işıq salır.

**U. Şekspir**

Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.

**Ulu öndər Heydər Əliyev**

Hər kəs hər kəsə bir tikə verə bilər, boğaz bağışlamaq, yalniz Allahın işidir.

**Mövlana**

Gözəl söz danışan, heç kimdən pis söz eşitməz.

**Firdovsi**

Haqsızlıq qarşısında əyilsəniz, haqqınızla bərabər şərəfinizi də itirərsiniz.

**Hz. Əli**

Gözəl danışmağın sirri, lazımsız və mənasız sözləri unutmaqdır.

**Hz. Əbubəkir**

Özü doğru olanın, sözü də doğru olar.

**Hz. Əli**

Hər gecənin bir gündüzü vardır.

**Hz. Əli**

Gizlətdiyin sirr sənin əsirindir. Açsan sən onun əsiri olarsan...

**Hz. Əli**

Gözəl əxlaq; səbr və dözümlülükdür.

**Həsən-i Bəsri**

Ən yaxşı nəsihət: yaxşı örnək olmaqdır.

**Malcolm X**

Nəfis üç bucaqlı tikandır, necə qoysan batır.

**Mövlana**

Keçmişlər gələcəyə, suyun suya bənzəməyindən daha çox bənzəyir.

**İbn Haldun**

İncə sözlər kəsgin qılınca bənzəyir, qalxanın yoxdursa geriyə çəkil.

**Mövlana**

Əsl varlı insan bilgisi çox olan insandır.

**Hz. Əli**

**https://drive.google.com/file/d/1Z1cFq5qtEq9t_a-6e-WFSVWRKVNHG2Wy/view**


Bəhmənyarın
fəlsəfəsi
Zakir
Məmmədov


Ramiz Əkbərov
NİZAMİ GƏNCƏVİNİN
TİBBİ-FƏLSƏFİ
VƏ SOSİAL-EKOLOJİ
GÖRÜŞLƏRİ


KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI
MİRZƏ FƏTƏLİ
AXUNDZADƏ
ƏSƏRLƏRİ


Məmmədhəsən Qəmbərli
Həzrəti
Məhəmmədin
hədislərində
ümumbəşəri dəyərlər


Uşaqlarla fəlsəfə
Nuran Direk
3 alma


Əlisa NİCAT
QIZIL FƏLSƏFƏ


FƏLSƏFƏ UŞAQLAR ÜÇÜN
Uilyam Okkam
Epikur
Pifaqor
Freyd
Konfutsi
Kant
Hegel
Diogen
Spinoza
Volter
Lao-tszı
Aristotel
Platon
Seneka
Ksenofan
Dekart
Petrarka
SOKRATES
Tərtib edən
İlqar Əlfioğlu


AZƏRBAYCAN
FƏLSƏFƏ TARİXİ
I

**Virtual sərgi:**

Kitabxanalarda hazırlanan məlumat bazalarının, video çarxların, məlumat xarakterli slaydların, sərgilərin xüsusi əhəmiyyəti vardır. Beynəlxalq Fəlsəfə günü münasibətilə *"Filosofları birlikdə tanıyaq" başlıqlı virtual sərgi ilə sizləri tanış edək.*

*Fəlsəfə uşaqlar üçün. - Bakı : Qanun, 2019. - 360 s.*

*Kitabda Dünya filosofları Konfutsi, Pifoqor, Demokrit, Ksenofan, Herakl, Zenon, Orta əsr fəlsəfəsi, Rus fəlsəfəsi haqqında maraqlı məlumatlar öz əksini tapmışdır. Həmçinin uşaqlar üçün hazırlanmış bu maraqlı kitab əsasında kitabxanada Fəlsəfə günü münasibətilə informasiya həftəsi də təşkil edə bilərik .*

**Kitab müzakirəsi :**

Kitabxanada keçirilən maraqlı tədbirlərdən biridə kitab müzakirələridir. Kitabdakı hər hekayə konkret bir filosofa həsr olunub; onun həyatından, ən dəyərli fikirlərindən bəhs edir; əsrlərdən bəri ucaldılan "fəlsəfə məbədi"nin təməlinə, divarlarına məhz onun qoyduğu daşdan, yaxud daşlardan söz açır.

Bütün filosofların bayramı olan fəlsəfə günü 2005-ci ildə YUNESKO (UNESCO) Ümumdünya Təşkilatı tərəfindən hər il noyabr ayının üçüncü cümə axşamı günü qeyd edilir. YUNESKO (UNESCO) bu günü qeyd etməklə, hər bir mədəniyyətdə və hər bir insanda təfəkkürün inkişafı üçün fəlsəfənin dəyərinə diqqət çəkir. Fəlsəfə təkcə valehedici elmi nizam deyil, həm də cəmiyyətləri dəyişdirə bilən gündəlik həyat təcrübəsidir. Fəlsəfə bizi dünyanın intellektual

cərəyanlarının müxtəlifliyi ilə tanış edən fəlsəfi mədəniyyətlərin dialoquna töhfələr verən bir elm sahəsidir. Eləcə də düşünməyə, konstruktiv fikir mübadiləsinə maraq artırmaqla, qarşılıqlı hörmət olan cəmiyyətin yaradılmasına yardımçı olan, zəmanəmizin əsas problemlərini başa düşməyə və bizi düşündürən suallara cavab tapmağa köməklik etməklə, həm də dəyişikliklərin həyata keçirilməsi üçün bizlərə stimul verir. YUNESKO (UNESCO) Ümumdünya Fəlsəfə Gününün qeyd edilməsinin təşəbbüskarıdır, lakin onun sahibi deyildir. Bu gün dünyanın bütün fəlsəfə mütəxəssislərinə və bilicilərinə aiddir!

Kitabxanada yuxarı yaşlı oxucularla mütəfəkkir, ilk təhsilini Şamaxıda almış, dövrün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənmiş filosof "İmadəddin Nəsiminin fəlsəfi dəyərləri" mövzusunda beynəlxalq elmi konfrans keçirə bilərik. Konfransda iştirakçılara Nəsiminin şəxsiyyətinə, irsinə verilən yüksək dəyərdən söhbət aça bilərik. Bununla sənətkarın həyat və yaradıcılığının, həmişəyaşar ideyalarının daha geniş miqyasda və elmi əsaslarla tanıdılmasına kömək edə bilərik.




**Fəlsəfə, uşaqlar üçün / tərc.ed., tərt.ed. İ. Əlfioğlu. - Bakı : Qanun, 2019. - 360 s. : şək., il. ; 20 sm**




**Direk, Nuran. Uşaqlarla fəlsəfə / N. Direk ; tərc.ed. N. Zöhrablı ; red. F. Hüseynova ; rəs. F. Aksular. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 176 s. : rəngli il. ; 23 sm. - ISBN 978-9952-513-22-6**

Kitabxanada Nuran Direkin ilk dəfə “Pan Yayıncılık” nəşriyyatı tərəfindən *“Çocuklarla fəlsəfə”* adı ilə çap edilən kitabının tərcüməsi ilə oxucuları tanış edə bilərik. Kitab Nuran Direkin uşaqlara tənqidi üstünlüklərini göstərir, onları əvvəlcə bədii mətnlərlə keçərək düşünməyə və fəlsəfi fikirlər yürütməyə çağırır. Bu kitabın kitabxanada uşaqlarla müzakirəsini keçirə bilərik. Kitabdakı materiallardan istifadə uşaqları daha çox fəlsəfi düşünməyə, gələcəkdə onların fəlsəfi dünyagörüşünün, məntiqi biliklərinin formalaşmasına

yaxından kömək edəcəkdir. Kitabda onlar *“Ağıl və düşünmə”,”Fikir yürütmə”, “Bilik və inanc”, “İnsan münasibətləri”, “İnsanın dəyəri”, Əsaslı düşünmə və fikir yürütmə, “Tənqidi düşünmə”, “Fəlsəfə və filosoflar”, “Doğruluq və həqiqət”, “Gözütoxluq”, “Məsuliyyət və dostluq”* fikirlərini öyrənəcəklər. Mətnləri ilə birlikdə verilmiş sual cavablar uşaqlar üçün maraqlı olan viktorinalarda istifadə edilə bilər.

**Kitabxanaçı:** Uşaqlar Şarll Perronun yazdığı Sindirella nağılını hamınız bu günə qədər sevə - sevə oxumusunuz. Nağılda anası öldükdən sonra Sindirellanın atası başqa qadınla evlənir. Analığı isə onunla çox pis davranır. Gecələr sobanın yanında yuxuya gedən qıza analığı “küllük pişiyi” ləqəbi adı qoyur. Onu bu adla çağırıb lağa qoyur, təhqir edirlər. Bir gün yaşadıqları ölkənin kral və kraliçası oğullarını evləndirmək istəyirlər. Yaraşıqlı şahzadəyə uyğun qız tapmaq üçün ölkənin bütün yaraşıqlı qızlarını sarayda ziyafətə dəvət edirlər. Ögey anası qızlarına rəqib olmasın deyə Sindirellanı gizlədib saray adamlarına göstərmir və ziyafətə getməyə qoymur. Saraya gedə bilməyən Sinderella kədərlənir. Sinderella ağlayanda birdən xeyirxah mələyi qarşısında görür. Mələk qızın dərdindən hali olduqdan sonra bir sehr oxuyur, gözəl ayaqqabı və paltar peyda olur. Dəbdəbəli bir faytonsa qapıda onu gözləyir. Sinderella ayaqqabı və paltarı geyinib, faytona minib ziyafətə gedir. Ziyafətdə şahzadənin Sinderelladan xoşu gəlir. Sinderella vaxtın necə keçdiyini bilmir. Sehrin vaxtının bitdiyini görən Sindirella faytona tərəf qaçanda ayaqqabısının tayı yolda düşüb qalır. Şahzadə nə qədər axtarsada Sindirellanı görə bilmir. Şahzadə öz adamlarına bu ayaqqabının sahibini axtarmağı əmr edir. Ögey ana və bacıların bütün fitnələrinə

baxmayaraq şahzadənin adamları Sinderellanı tapıb saraya gətirirlər. Sinderella şahzadə ilə evlənib xoşbəxt olur. Qısa məzmundan sonra nağıl ətrafında oxucularla sual-cavab edə bilərik.

1. Hekayədə Sinderellanın xoşxasiyyətli olduğunu göstərən əməl və davranışlar hansıdır?
2. Ögey ananın və bacıların əməllərini hansı sözlərlə xarakterizə edə bilərsiniz?
3. Sənin nağıl qəhrəmanın olsaydı necə hərəkət edərdi? Bundan başqa fəlsəfə günü ilə əlaqədar uşaqlarla "Dəniz ulduzu" adlı hekayənin ətrafında söhbət edə bilərik. İlk öncə hekayə ilə onları tanış edirik:

   Bir kişi okean sahilində gəzəndə həyəcanla yerdən nəyisə götürüb atan adama rast gəlir. Bir az yaxınlaşanda bu adamın sahilə çıxmış dəniz ulduzlarını yığıb dənizə atdığını görür.

- Onları niyə yığıb dənizə atırsan? – deyə soruşur.
- Tələsə-tələsə dəniz ulduzlarını dənizə atan adam cavab verir.
- Qoy yaşasınlar.
- Kişi gülür.
- Bu yaxşı işdir, amma burada minlərlə dəniz ulduzu var. Axı hamısını xilas edə bilməzsən. Bu nəyi dəyişdirəcək ki? Ona qulaq asa-asa yenə cəld bir dəniz ulduzunu göstərib deyir.
- Bax artıq onun üçün hər şey dəyişdi!

Kitabxanada fəlsəfənin bir yönü olan xeyirxahlıq, yaxşılıq əməllərinin aşılanması üçün də tədbirlər təşkil edə bilərik. Hekayəni dinlədikdən sonra oxucularla sual-cavab keçirə bilərik.

- Bu hekayənin əsas ideyası nədir?
- Hekayədəki fikirlərlə razısınızmı? - Nə üçün?
- Kimlərə kömək etmək lazımdır?
- Sən kimlərə və necə kömək edirsən?

**Kitabxanaçı:** Xeyirxahlıq nədir? Xeyirxahlıq insanlar arasındakı münasibətlərdə təzahür edir, təmənnasız, heç bir əvəz ummadan edilən yaxşılıq kimi meydana çıxır. Hələ ən qədim yazılı abidəmiz olan "Avesta"da həyat xeyirlə şərin mübarizəsi şəklində verilir və bu mübarizənin gec-tez xeyirin qələbəsi ilə bitəcəyi göstərilir. Bu da onu göstərir ki, xeyirin şər üzərindəki qələbəsi bəşərin öz arzusu, öz amalıdır. Şair və yazıçılarımız da öz əsərlərində həmişə xeyirxahlığa geniş yer vermiş, və xeyirin şər üzərindəki qələbəsini əks etdirmişlər. Bu cəhətdən dahi şairimiz Nizami Gəncəvinin "Xeyir və Şər" mənzum hekayəsi diqqəti daha çox cəlb edir. "Yeddi gözəl" poemasında Çin şahzadəsinin söylədiyi bu hekayətdə xeyirlə şərin mübarizəsi əks etdirilir. Əsərdə Xeyir, kürd və kürdün qızı xeyirxah qüvvələr, xeyirxahlığı təmsil edən surətlərdir. Şər isə burada pisliyi, mənfiliyi əks etdirir. Heç bir yaxşı əməl həyatda cavabsız qalmayıb, digəri tərəfindən yüksək qiymətləndirilir. Bu insanlar arasındakı münasibətlərdə də təzahür edir, təmənnasız, heç bir əvəz ummadan edilən yaxşılıq, xeyirxahlıq hər bir kəsə qiymətlidir.

"Uşaqlarla fəlsəfə" kitabında yer alan tərcümə edilmiş şeirlərdən birini dinləyək.

Yaxşı adamlar və ya yaxşılıq görənlər

Öldürülürsə tələm-tələsik

Nəyə lazım bu yaxşılıq?!

Yaxşı olmaq əvəzinə,

Dünyanı elə dəyiş ki,

Hamı üçün yaxşı olsun.

Yaxşılıq uman olmasın,

Azad olmaq əvəzinə,

Dünyanı elə dəyiş ki, hamı azad yaşasın,

Kimsə azadlığa həsrət qalmasın.

Aqil olmaq əvəzinə

Dünyanı elə dəyiş ki,

Axmaqlıq faydasız olsun.

**Bertold Brext**

Bu şair necə cəmiyyət arzulayır?

Şairin fikirləri ilə razısınızmı?

Səbəbini izah edin.

Bundan əlavə kitabxanada fəlsəfəni uşaqların mənimsəməsi üçün *"Uşaqlarla fəlsəfə"* kitabından istifadə edərək burada yer almış şerlər ətrafında şeir müsabiqəsi də təşkil edə bilərik.

**Sokratın cavabı**

Sokrat bir ev tikdirdi özünə,

Əslində baxsan düzünə

Alınsada bir az dar,

Rahat idi otaqlar.

Yox idi evin heç təmtərağı, bəzəyi,

Burda olan hər şeyin sadəlikdir özəyi.

Hər kəs bir cür yanaşdı bu müdrikin işinə,

Məruz qaldı hər yandan o, tənqid atəşinə.

Hərə bir cür eylədi tikilən evə irad,

Verdilər yekdil qərar – bu ev bərbaddır, bərbad!

Dedilər: - bu ev ki var, bənzəyir lap komaya,

Hədər getmiş o zəhmət, hədər getmiş o maya.

Yaraşmır bu ev sənin şöhrətinə, şanına,

Necə qarşılayarsan dostlar gəlsə yanına?

Əl qoyub sinəsinə, dərindən bir kərə "off"

Çəkib verdi onların cavabını filosof:

- Bu evə sığan qədər kaşki dostlarım ola,

Baxıb mən fərəhlənəm, köksüm sevinclə dola.

Sokratın sözünə qüvvət:

Dəyməz etməyə xiffət.

Sözdə dost olsada çox,

Hər kəsdə etibar yox.

***Palçığa batan araba***

Saman yüklü araba palçığa batmış idi,
Palçıq atın belinə az qala çatmış idi.
Bir kimsə yoxdu orda, arabaçı tək idi.
Arabanı çıxarmaq ona ağır yük idi.
Bir bəlalı yer idi bu yer Bretanda
Az-az rast gəlinərdi belə yerə dünyada.
Hər kəsin ki var idi qismətində bir bəla,
Tale onun səmtini döndərirdi o yola.
Biçarə arabaçı bilmirdi ki, nə etsin,
Arabanı nə təhər çıxarıb evə getsin.
Özünü lənətləyir, atını da döyürdü,
Coşub çıxır özündən, küfr edirdi, söyürdü.
Yorulmuşdu biçarə, fağır-fağır baxırdı,
Axırda imdadına tanrıları çağırdı:
Mənə yardım eləmək nədir sənin əlində?
Uzat mənə əlini, gəl imdadıma yetiş,
Məni çıxart buradan, qurtarıb getsin bu iş.
Hələ heç bitməmişdi duası, yalvarışı,
Birdən çox gurultulu bir səs eşitdi kişi:
Bir yoxla, yaxşı-yaxşı gözdən keçir hər yanı,

Gör nədir tutub orda saxlayan arabanı.

Vaxtını vermə zaya, nə söy nədə ki gözlə,

Əlinə bir bel götür, təkərləri təmizlə.

**Divar qəzeti:**






Oxucuları fəlsəfə haqqında məlumatlandırmaq üçün kitabxanada divar qəzeti hazırlaya bilərik. Qəzeti maraqlı olsun deyə hər hansı filosofa həsr edə bilərik. “Taxta çıxmış filosof” adı ilə hazırladığımız qəzeti Roma imperatoru Mark Aveli Antonin” - ə aid edə bilərik. Romanın gələcək imperatoru Mark Aveli Antonin hələ uşalıqdan Romanın ali dairələrində yaşamış, tərbiyə almışdır. Təhsillə yanaşı müəllimi Diagenet ona təsviri sənət və fəlsəfə də öyrədirdi. O vaxtın qayda-qanununa görə Adrian Avrelinin əmisi onu övladlığı götürür. Artıq on yeddi yaşında Mark Avreli yüksək vəzifə icra edirdi. On doqquz yaşında Roma imperiyasının konsulu postunu tutur, sezar titulu alır. Buna baxmayaraq daima fəlsəfə ilə məşğul olur. 161-ci ildə isə Mark Roma imperatoru olur, əvvəl Lusi Verlə sonralar Romanı təkbaşına idarə edir.

## Məlumat bazası:

Beynəlxalq Fəlsəfə günü ilə bağlı tədbirlərdə istifadə üçün bu günün tarixi, yaranmasını əks etdirən kitabxananın fondunda olan ədəbiyyata uyğun məlumat bazaları yaratmaq olar. Bu bazalar Fəlsəfə günü ilə maraqlanan oxuculara, ziyalılara və mütəxəssislərə yaxından köməklik edə bilər. Yaradılmış məlumat bazası, istifadəçinin bu gün haqqında informasiyaya olan tələbatını ödəyə bilən dəyərli mənbə olmalıdır. Biblioqrafik bazada aşağıdakı məlumatlardan istifadə edə bilərik:

- Yaranma tarixi, xronologiya;

- Bu gün haqqında rəsmi sənədlər;

- Beynəlxalq Fəlsəfə gününün qeyd edilməsi haqqında seçilmiş fikirlər;

- Görkəmli filosoflarımız;

- AMEA Fəlsəfə və Sosiologiya İnstitutu haqqında

- Adına təsis edilmiş mükafatlar;

1.Yaponiyaya məxsus Kyoto Mükafatı elm və texnologiya ilə yanaşı, fəlsəfə və incəsənət sahələri üzrə təqdim olunur. 1985-ci ildən təsis edilən məşhur mükafata namizədlər Kyoto Mükafatı Komitəsi tərəfindən seçilir.

- AMEA Fəlsəfə institutu haqqında

- Azərbaycan Fəlsəfə və Sosiologiya institutu haqqında.

- Filosofların müxtəlif mədəniyyət müəssisələrində muzeylərdə, parklarda heykəlləri və onlar haqqında məlumat.

## Azərbaycanda fəlsəfə:

Azərbaycanda fəlsəfi fikrin inkişafından danışarkən keçmişin mühüm yazılı abidələri – Avesta, pəhləvi mətnləri, qədim yunan filosofları və tarixçilərinin əsərləri, orta əsrlərin yazılı abidələri, ölkə ərazisindəki arxeoloji qazıntıların materialları, dil və şifahi ədəbiyyat tarixinin tədqiqi və s. araşdırmalar yada düşür.
Əbülhəsən Bəhmənyar, Əbuhəfs Sührəvərdi, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Əfzələddin Xunəci, Siracəddin Urməvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Rəcəbəli Təbrizi, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə və başqaları Azərbaycanda fəlsəfi fikrin inkişafında mühüm rol oynayıblar.

**Görüş:**

Kitabxanada Fəlsəfə günü ilə bağlı fəlsəfə biliciləri ilə "*Fəlsəfə nədir*" adlı görüş keçirmək olar. Tədbirə Azərbaycan fəlsəfi düşüncəsi haqqında oxuculara məlumat vermək üçün fəlsəfə elmini tədqiq edən ədəbiyyatşünaslar, filosoflar, tarixçilər dəvət edirik. Oxuculara İmaməddin Nəsimi, Mirzə Fətəli Axundzadə , Abbasqulu ağa Bakıxanov fəlsəfi əsərləri haqqında danışılır.

**I aparıcı:** 2002-ci ildən hər il noyabr ayının 3-cü həftəsində YUNESKO-nun qərarı ilə Beynəlxalq Fəlsəfə Günü dünyanın 70 ölkəsində qeyd olunmaqdadır.
**II aparıcı:** Hər il Noyabrın üçüncü Cümə axşamı günü Ümumdünya Fəlsəfə Gününü qeyd etməklə, insan düşüncəsinin inkişafı və hər bir şəxs üçün fəlsəfənin davamlılığı qiymətləndirilir.

**III aparıcı:** Fəlsəfə tənqidi və sərbəst düşüncəni təbliğ etməklə dünyanın daha yaxşı dərk olunmasına, daha çox bacarıqlı cəmiyyətlər yaradılmasına, eyni zamanda, dözümlülüyün möhkəmləndirilməsinə və sülhə kömək edir.
**I aparıcı:** Azərbaycanda fəlsəfi fikirdən danışarkən keçmişin mühüm yazılı abidələri – Avesta, pəhləvi mətnləri, qədim yunan filosofları və tarixçilərinin əsərləri, orta əsrlərin yazılı abidələri, ölkə ərazisindəki arxeoloji qazıntıların materialları, dil və şifahi ədəbiyyat tarixinin tədqiqi və s. araşdırmalar geniş imkanlar yaradır. Azərbaycanın fəlsəfi fikir tarixində İslam dininin müddəaları da xüsusi yer tutur. Əbülhəsən Bəhmənyar, Əbuhəfs Sührəvərdi, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Əfzələddin Xunəci, Siracəddin Urməvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Rəcəbəli Təbrizi, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə və başqaları Azərbaycanda fəlsəfi fikrin inkişafında mühüm rol oynayıblar.
**II aparıcı:** Şərq İslam ölkələrinin bədii-fəlsəfi fikri tarixində yeni mərhələni başlayan Mirzə Fətəli Axundzadə olmuşdur. Müəllifin ədəbiyyatımıza təqdim etdiyi əsərlərinin bir çoxu fəlsəfi xarakter daşıyır.
Mali bərabərlik məsələsini anlamaq və dərk etmək, biz müasirlər üçün çox çətindir. Hərçənd ki, Avropa alimlərindən bəziləri mali bərabərliyi də, bəzi dəlillərə əsasən bir neçə əsrdən sonra mümkün hesab edirlər. Lakin başqa filosoflar onların fikirlərini rədd edən dəlillər gətirirlər. Zahirdə ağıla gələn budur ki, bu dünya başqa dəyişiklik tapmasa və insan övladı başqa təbiət və xilqət əldə etməsə, bu dünyada millətlərin bu vəziyyət və tərkibləri insanların bu əxlaq və təbiəti ilə mali bərabərlik mümkün deyildir.

**III aparıcı:** Belə əsərlərindən məşhur *"Kəmalüdövlə məktubları" traktı, "Molla Ələkbərlə mübahisə", "Kritika", "Con Stüort Mill azadlıq haqqında", "Yek kəlmə"* və s. fəlsəfi-tənqidi əsərləri qeyd edə bilərik.

**I aparıcı:** Kəmalüddövlə məktubları — Mirzə Fətəli Axundovun 1865-ci ildə yazdığı bədii–fəlsəfi əsərdir. Bu əsər Axundovun yazdığı ən mühüm tənqid tipli publisistik işi sayılır. Bu əsərində yazıçı hər cür dini fanatizmi aradan qaldırmaq üçün amansız mübarizəni qarşısına məqsəd qoyur. Əsəri yazan müəllif istəyir ki, onun da xalqının qəlbində qeyrət, namus, ədalət, bərabərlik, xalqı və vətəni sevmək hisslərinin toxumu əkilsin. O, xalqın içərisində olan nifaq və ədavətin birlik və səmimiyyətə çevrilməsini, zəlillik, yoxsulluq və dilənçiliyin aradan qaldırılmasını arzu edir.

**II aparıcı:** Xalqın sərvət və qüdrət sahibi olmasını istəyir. O bilir ki, dini fanatizm aradan qalxmayınca, onun bu arzuları yerinə yetməyəcəkdir. Çünki dini fanatizm insanların həqiqəti görən gözünü pərdələyir və onların dünya işlərində irəliləməsinə mane olur. Odur ki, "Kəmalüddövlə məktubları" bəşəriyyətə xidmət etmək, Şərq xalqlarını dini xurafatdan, zalımların əsarət zəncirindən azad etmək üçün zülmə və əsarətə qarşı mübarizə silahına çevrilir. Əsərin süjetinin əsasını Hind şahzadəsi Kəmalüddövlənin fars şahzadəsi Cəlalüddövləylə yazışması təşkil edir. Burada yazıçı hər cür dini fanatizmi aradan qaldırmaq üçün amansız mübarizəni qarşısına məqsəd qoyur. Odur ki, "Kəmalüddövlə məktubları" bəşəriyyətə xidmət edib, şərq xalqlarını dini xurafatdan, zalımların əsarət zəncirindən azad etmək üçün zülmə və əsarətə qarşı mübarizə üçün yazılmış bir əsərdir.

**I aparıcı:** Kəmalüddövlə ilə Cəlalüddövlə şahzadədirlər. Hər ikisi siyasi təqiblər üzündən Misirə köçməyə məcbur olmuşlar. Kəmalüddövlənin vətəni Hindistanda ingilislər ağalıq edir, onlar Kəmalüddövlənin atası Övrəngzibi hakimiyyət başından götürüb məmləkətə sahib olmuşlar. Cəlalüddövlə isə vətəni İranda despotun özbaşınalığına və zülmünə dözə bilməyib Misirə köçmək məcburiyyətində qalmışdır. Göründüyü kimi, hər iki şahzadə ölkələrində hökm sürən vəziyyətlə barışa bilmir, vətənlərinin geridə qalmasına acıyır və düçar olduqları fəlakətdən xilas olmaq üçün yollar axtarır.
**II aparıcı:** Səyahətə çıxan Kəmalüddövlə, əvvəl Amerika, sonra Avropa ölkələrini gəzir. Onun bu səyahətinin səbəbi adicə seyr etmək və ya əylənmək məqsədi daşımır, o, öz ölkəsinin və xalqının, eləcə də Şərq xalqlarının geridə qalması səbəblərini öyrənmək, tərəqqi etmiş ölkələrin ictimai-siyasi quruluşu ilə tanış olmaq — bir sözlə, onların irəliləməsinin əsas şərtlərini araşdırmaq üçün gəzir. Bu müdrik səyyah Qərb ölkələrini gəzdikdən sonra dostu Cəlalüddövlənin xahişi ilə onun vətəni İrana gedir.
**II aparıcı:** 2-ci məktubuna əsasən o bilir ki, onun yazdıqlarını oxuyub başa düşsələr də, bunlar fayda verməz. O deyir ki, elə bir əlac tap ki, İran əhli yazıb-oxumağa qadir olsun. Əslində, Axundzadə özü də əlifba hazırlamış, hətta onu Osmanlı dövlətinə təqdim etmiş, lakin yeni əlifba qəbul edilməmişdir .
**I aparıcı:** 2-ci məktubda da, əslində Axundzadə ömrünün sonuna qədər arzuladığı yeni əlifbanı Kəmalüddövlənin dilindən söyləyir. O, Nadiri misal gətirir ki, onun kimi qorxulu despotun da sonunun necə olduğu məlumdur. Molla Sadığın sözlərindən sonra deyir ki, belə cəfəng əqidə heç bir xalqda yoxdur. Sonra Allahın ədaləti haqda fikirlər söyləyir.

**II aparıcı:** O insanın behişt ümidi və cəhənnəm qorxusundan danışır. O deyir ki, ərəb tayfasının yalan quraşdırmaqda və İranlıların yalana inanmaqda misli-bərabəri yoxdur. Kəmalüddövlə Molla Sadığın yalanlarına müxtəlif mənbələrdən faktlar gətirir. Kəmalüddövlə dini və elmi cəhətdən müqayisələr aparır. Sonra surələrdən danışır, onlardan da dəlillər göstərərək sanki öz fikrini təsdiqlətməyə çalışır. O bilir ki, Cəmalüddövlə deyəcək*: "Hikmətdən sual yoxdur!"* Amma o bunu qəbul edə bilmir, onu ittiham edir, ondan elmsizliyini etiraf etməsini istəyir.
**I aparıcı:** Əsərdə Kəmalüddövlənin mövqeyi çox kəskin, sərt verilir. Onun düşüncəsinə görə əqidə ağıl və hikmət əsasında qurulmalıdır, onun açıqlaması olmalıdır, belə olmayan halda, ona etibar etmək olmaz. Dini baxışına görə *"İslam dini o zaman yaşayıb davam edə bilər ki, insanlar dinin mahiyyətini şüur və mərifət əsasında anlamış olsunlar"*. 2-ci məktubun əvvəlindən Kəmalüddövlə dəlillər ki göstərirdi, məktubun sonunda artıq belə deyirdi: "Daha bəsdir! Nə vaxta qədər faydasız arzular dalınca düşəcəksiniz? Artıq elə vaxt yetişib ki, 5 duyğu orqanınızı da müvəffəqiyyət qazanmaq və fəzilət sahibi olmaq üçün sərf edəsiniz".
Gəlin fəlsəfi xarakterli müəllifin məktubundan bir parçaya tamaşa edək:

*Səhnəyə oxucular gəlir:*

***Oxucu:*** Ərəblər bizim min illik səltənətimizi yıxdılar, şən və şövkətimizi bərbad etdilər. Vətənimizi elə xarabdan da xarab etdilər ki, bu günə qədər abad etmək mümkün olmayıbdır.
***Oxucu:*** Üstəlik bizim boynumuza elə bir yazı bağladılar ki, ümumə müyəssər olan savadı əldə etmək çətin olmuşdur.
Bu qövmün qabaqcılları sağ olduqları zaman biz onların qılıncının qorxusundan onlara itaət etməyi qəbul etdik.

**Oxucu:** İndi "Kəmalüdövlə" müəllifinin təlaş və arzu heç olmazsa, öz millətini cəhalət qaranlığından mərifət işığına çatdırmaqdır. Əgər bu arzusuna nail olursa , nə qədər xoşbəxt olacaq və dünyadan kamına çatmış köçəcəkdir.

**Oxucu:** Ərəblərin yazısı  sayəsində cəhalətdə qalaraq onlardan dərd çəkən yalnız müsəlmanlar deyil, bəlkə dünyanın bəlkə dünyanın bütün millətləri bu günə qədər bu zalımlardan şikayət edirlər ki, Misir kitabxanasını yandıraraq qədim elm və fənləri dünyadan yox edərdilər. Səbəbi aydındır

**Iaparıcı:** Tədqiqatçı alimlərin fikirlərinə görə "Kəmalüddövlə məktubları"nda M.F.Axundzadə istibdada, cəhalətə və fanatizmə qarşı çıxır, insanpərvərlik, həmrəylik, xalqlar arasında dostluq və əməkdaşlıq ideyasını təbliğ edir.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**

**Direk N.** Uşaqlarla fəlsəfə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 176 s.

**Durant W.** Mədəniyyətin təməlləri : Fəlsəfə. - Bakı : "Nərmin" yayın evi, 2016. - 148 s.

Fəlsəfə, uşaqlar üçün. - Bakı : Qanun, 2019. - 360 s.

**İmanov H.** Fəlsəfənin əsasları. - Bakı : Turan Nəşrlər Evi, 2007. - 42 s.

**Qocayev M.** Nizaminin insan fəlsəfəsi. - Təkrar nəşr. - Bakı : Mütərcim, 2012. - 172 s.

**Mehdi N.** Fəlsəfədən diddiklərim : Hamı üçün ideyalar, bir də faktlar. - Bakı : Qanun, 2010. - 368 s.

**Mütəhhəri M.** Əxlaq fəlsəfəsi. - Bakı : Ülvi - Həyat, 2009. - 240 s.

**Tunalı İ.** Fəlsəfə. - Bakı : Araz, 2004. - 166 s.

**Dövrü mətbuatda**

**Adilov V.** Görünməyən gerçəklər // Füyuzat. - 2018. - № 1. - S. 30-33.

**Axundova E.** Əl-Fərabi fəlsəfəsində bilik, qavrama və məntiqi anlayış // Mədəniyyət.az. - 2016. - № 3. - S. 81-82.

**Balayev M.** Əl-Fərabinin yaradıcılıq tarixi fəlsəfi ədəbiyyatda // Füyuzat. - 2019. - № 2. - S. 56-61.

**Behrudi R.** Ölən əbədiyyət və təkrarlanan dünya : Rüstəm Behrudinin həyat və ölüm haqqında fəlsəfi-poetik düşüncələri // Xalq qəzeti. - 2005. - 6 sentyabr. - S.6. .

**Bünyadzadə K.** Azərbaycan fəlsəfə tarixinin ən yeni səhifələri // Azərbaycan : qəzet. - 2019. - 30 iyun. - № 139. - S. 1, 4.

**Bünyadzadə K.** Dörd ünsür : su, od, hava, torpaq // Füyuzat. - 2017. - № 1. - S. 12-21.
**Bünyadzadə K.** İnsan dünyasının çırağı // Füyuzat. - 2019. - № 5. - S. 27-30.
**Bünyadzadə K.** İnsanlığın nüvəsi : İlahi eşq // Füyuzat. - 2017. - № 3. - S. 42-47.
**Cəfərli M.** Əxilik və Əxi Evrən // Füyuzat. - 2011. - № 6. - S. 38-43.
**Cəfərov N.** Müdrikliyin fəlsəfəsi, yaxud filosofların müdriki // Azərbaycan. - 2007. - 26 yanvar. - S.7.
**Etibaroğlu N.** Sosial faktorların inanca təsiri // Mədəniyyət.az. - 2017. - № 313. - S. 78-81.
**Fəhmi İ.** Qızılbaş metafizikası, Səfəvi mistikası // Ədəbiyyat qəzeti. - 2017. - 14 yanvar. - № 1. - S. 26-27. ; 20 yanvar. - № 2. - S.24-25.
**Fəhmi İ.** Qızılbaş metafizikası, Səfəvi mistikası : mozaik risalə : kitabdan fraqmentlər // Ədəbiyyat qəzeti. - 2016. - 5 noyabr. - № 41. - S. 16-17. ; 12 noyabr. - № 42. - S.16-17. ; 19 noyabr. - № 43. - S.16-17. ; 26 noyabr. - № 44/45. - S.16-17. ; 3 dekabr. - № 46-47. - S.10-11. ; 10 dekabr. - № 48-49. - S.22-23. ; 17 dekabr. - № 50. - S.22-23.
Göydən gələn, yerdə bitən fəlsəfə : Göylərin sirrini göylər bilər... // Qobustan. - 2018. - № 3. - S. 5.
**Hacı K.** Tanrının ruhu // Ədəbiyyat qəzeti. - 2017. - 3 iyun. - № 20. - S. 22.
**Həsənov R.** İbn Sinanın fəlsəfi sistemində insan konsepsiyası // Mədəniyyət : jurnal. - 2021. - № Noyabr/Dekabr(340). - S. 126-129.
**Həşimzadə N.** Gənc alimi öldürən fəlsəfə : Süleyman Abdullanın "Fəlsəfə müəlliminin ölümü" romanı haqda // Ədəbiyyat qəzeti. - 2019. - 27 iyul. - № 26. - S. 15.

**Xəlilov S.** Ədəbiyyatın fəlsəfəsi və ədəbiyyatda fəlsəfə // Ədəbiyyat qəzeti. - 2021. - 30 oktyabr. - № 43. - S. 14.
**Xəlilov S.** Fəlsəfə və poeziya: Nizami, Nəsimi və Füzuli timsalında // Ədəbiyyat qəzeti. - 2021. - 31 iyul. - № 31. - S. 2-4.
**Kərimi G.** Diqqətin metafizikası // 525-ci qəzet. - 2022. - 14 yanvar. - № 7. - S. 13.
**Quliyeva A.** Fəlsəfə və eşq ; eşq və siyasət ; eşqin həqiqiliyi və b. : şeirlər // Kaspi. - 2018. - 22-24 dekabr. - № 221. - S. 14.
**Mustafa N.** Ədəbi özünü tanı, insan / insanın mənşəyi, əmələ gəlməsi, antropogenez məsələləri // Ədəbiyyat qəzeti. - 2015. - 6 fevral. - № 8. - S. 5-6. ; 13 fevral. - № 9/10. - S. 26. ; 20 fevral. - № 11. - S. 14. ; 28 fevral. - № 12/13. - S. 10-11. ; 14 mart. - № 16/17. - S. 17. ; 11 aprel. - № 20/21. - S. 11. ; 2 may. - № 26/27. - S. 25. ; 16 may. - № 30/31. - S. 31. ; 13 iyun. - № 38/40. - S. 26. ; 26 iyun. - № 41/42. - S. 26-27.
**Nemətzadə S.** Dünya mədəniyyətində Əbrunun fəlsəfəsi // Füyuzat. - 2018. - № 1. - S. 34-39.
**Ömərov V.** Azərbaycançılıq və əxlaqi-etik dəyərlər // Səs. - 2020. - 14 avqust. - № 138. - S. 15.
**Salim F.** Varlıq, hərəkət və bilinməzlik : Ən təhlükəli basqı fəlsəfi basqıdır // Kaspi. - 2020. - 22 yanvar. - № 10. - S. 15.
**Ulusel R.** Ortaq dünyagörüşü. Meyarlar // Qobustan. - 2020. - № 1. - S. 60-62.
**Ulusel R.** Platon dəyişdirmək istədiyi dünyanın üfüqlərində // Ədəbiyyat qəzeti. - 2017. - 23 sentyabr. - № 33. - S. 5.
**Volınski A.** Dekadentlik və simvolizm // Kaspi. - 2015. - 24 oktyabr. - № 174. - S. 14.

# Uşaqlar və fəlsəfə

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**